**Samirə Nail qızı Ramazanova**
AMEA-nın Arxeologiya və Etnoqrafiya
İnstitutunun dissertantı
E-mail: samira_ramazanova_2013@mail.ru

# AZƏRBAYCANDA MAARİFÇİLİK VƏ QADINLARIN İCTİMAİ FƏALLIĞI

**Açar sözlər:** maarifçilik, qadın, ictimai fəallıq, teatr, təhsil, mədəniyyət

**Ключевые слова:** просвещение, женщина, общественная активность, театр, образование, культура

**Key Words:** enlightenment, women, social activity, theatre, education, culture

Cəmiyyət həyatının bütün sahələrinə nüfuz etmiş, siyasətdən incəsənətə, ailədən dövlətə, dəqiq elmlərdən humanitar sahələrə kimi təzahür edən maarifçilik hərəkatı dünyanın yeni tarixində mədəni intibaha səbəb olmuş və bu gün də öz ideya-estetik təsirlərini saxlamış əhəmiyyətli bir tarixi-mədəni hadisədir. Avropada təşəkkül tapmış və "iki əsr ərzində bütün dünyanı öz ideya təsiri altında saxlamış" (7, s.6) maarifçilik hərəkatı əslində insanlığın növbəti bir təkamül mərhələsi idi. Hərəkatın intişar tapmağa başladığı dövrdən etibarən maarifçilər ilk növbədə tərəqqiyə inam bəsləyir, tarixi inkişafın qanunauyğunluğunu qəbul edirdilər. Habelə pedaqogikada yeni prinsiplər irəli sürür, sağlam düşüncəyə əsaslanan əxlaqı dini əxlaqa qarşı qoyurdular. Azad fikri boğan dini mövhumata, avamlığa, cəhalətə qarşı elmiliyin qoyuluşu prinsipial məsələ idi. Qanunun aliliyinə, vətəndaş həmrəyliyinə söykənən hüquq bərabərliyi özündə qadın haqlarını da ehtiva edirdi.

Maarifçilər deyirdilər ki, xurafat, mövhumat, biliksizlik, ədəbsizlik, mədəniyyətsizlik insan bədbəxtliyinin əsas səbəbidir. Maarif, təhsil, elm, fəlsəfə və elmi yaradıcılıq, fikir azadlığı isə mədəni və sosial inkişaf vasitəsidir. Onlar inanırdılar ki, xalqın maarifləndirilməsi, ağlın inkişafı cəmiyyətin həyatının bütün sahələrinin inkişafına nüfuzedici təsir göstərir. "İctimai bərabərsizlik və şəxsi azadlıq ideyası cəmiyyətin üçdə bir hissəsini əhatə etmişdir, humanist maarifçilər də məhz həmin hissənin tərkibinə daxil idi. Onlar öz təbliğatlarında insanları savadlandırmaq, onlarda fikir azadlığı formalaşdırmaq, müstəqil düşüncə tərzi, cəsarət tərbiyə etmək məqsədi güdürdülər" (8, s.706).

Maarifçilik fenomeni tarixi-siyasi şərait və iqtisadi-mədəni şərtlər zəminində təsdiqini tapmışdır. Konkret zaman və məkan kontekstində baxılması lazım gələn maarifçiliyə bu günün prizmasından yanaşsaq, görərik ki, hətta elmdə belə təməl və ya postament rolunu cəmiyyətin intellektual potensialı, ümumi savadlılıq dərəcəsi, maarifçilik işi, elmi-kütləvi təbliğat oynayır. Bu mənada XVIII əsrin ilk onilliyində yaranıb, XIX əsrin iyirminci illərində artıq bütün dünyaya yayılan maarifçilik hərəkatı tarixə ağıl, tərəqqi, milli mədəniyyətlərin inkişaf mərhələsi kimi daxil oldu (7, s.15). Belə ki, ictimai-siyasi, sosial-iqtisadi mahiyyət kəsb edən maarifçilik öz fəaliyyətində və eyni zamanda inkişafında dövrün estetik fikrindən geniş istifadə edir, bədii yaradıcılığın, elmi-nəzəri fikrin ideya təsir gücünə arxalanır və öz fəlsəfi-etik qayəsini, məqsəd və məqamını əsaslandırırdı.

Həm Qərbi Avropa, həm də rus maarifçiliyinin təsiri ilə Azərbaycanın sosial-tarixi inkişafı XIX əsrin əvvəllərindən etibarən ziddiyyətli meyllərlə müşayiət olunurdu. Təbii ki, bu proseslər Azərbaycanın elmi-fəlsəfi fikrinin inkişafına da öz təsirini göstərmiş, gec də olsa Azərbaycanda maarifçilik zəminli ictimai-siyasi təlimlər yaranmışdı. M.Nəvvab, İ.Qutqaşınlı, A.A.Bakıxanov, M.F.Axundov, M.Kazımbəy kimi maarifçi mütəfəkkirlər özlərinin maarifçilik ideyalarını, fəlsəfi-etik və materialist təlimlərini irəli sürmüşdülər. Beləliklə, ədəbiyyat, mədəniyyət və incəsənət sahələrində köklü forma və məzmun dəyişiklikləri baş verdi. M.F.Axundovun ardıcılları olan Azərbaycan maarifçiləri – Bakıda və

Azərbaycanın digər bölgələrində, o cümlədən, Şuşada, Şamaxıda, Lənkəranda, Qubada, Şəkidə, Naxçıvanda, habelə İrəvanda və Tiflisdə yaşayıb yaradan ziyalılar qısa bir dövrdə böyük bir tarixi dirçəlişə nail ola bildilər. Azərbaycanlıların ictimai fikri və mədəniyyətinin tanınmış maarifçilərinin həyat kredosu öz istedadlarını, bacarıq və qabiliyyətlərini xalqın tərəqqisi işinə həsr etmək, tükənməz fiziki qüvvə, əqli və mənəvi qüdrət, coşqun ehtirasla müqəddəs əməllərə xidmət göstərməyə çalışmaq olmuşdur. Onlar cəhalətə, fanatizmə, xalqı geri qoyan mürtəce adət və ənənələrə qarşı durmuş, mənəvi azadlıqların bərqərar olmasını istəmişlər. Qayə ucalığı, məqsəd və amalın gözəlliyi həmin mütərəqqi vətənpərvər ziyalıları elə ruhlandırmışdı ki, onlar bütün şüurlu həyatlarını mədəniyyətimizin çiçəklənməsi işinə sərf etmişlər (5, s.3-4).

Nisbi azadlıqların müşahidə edildiyi 1905-ci ildən sonra baş verən proseslər nəticəsində maarifçi-demokratların illərlə gözlədikləri tarixi fürsət ələ düşdü. Hələ XIX əsrin ikinci yarısında başlanan pedaqoji hərəkat XX əsrin əvvəllərində daha da qüvvətləndi. Nəhayət ki, Azərbaycan ziyalılarının uğrunda çalışdıqları ilk xeyriyyə cəmiyyəti və bunun ardınca çoxsaylı mədəni-maarif cəmiyyətləri fəaliyyətə başladı. İstanbuldan gətirilmiş mətbəə avadanlıqları milli dildə nəşrlərin sayının artmasına və açılmış "üsuli-cədid" məktəblərinə türk müəllimlərinin dəvət olunması isə milli şüurun güclənməsinə səbəb oldu. Bakıdan başlanan bu yeniləşmə prosesi Azərbaycanın müxtəlif guşələrində də maarifçiliyin inkişafına güclü təkan verdi. Hətta ayrı-ayrı maarifçilər bəzən cəmiyyət olmadan da öz şəxsi təşəbbüsləri sayəsində təqdirəlayiq işlər görürdülər. Belə maarifçilərdən 1904-cü ildə Qubada "Üsuli-cədid", iki il sonra Ağdaşda "Darül-irfan" məktəbləri, həmçinin qiraətxana və "Səadət" adlı qız məktəbi açmış Muxtar Əfəndizadənin adını xüsusi ehtiramla yad etmək istərdik (2, s.225-226).

XX əsrin əvvəllərində Bakıda 30-dan artıq xeyriyyə cəmiyyəti fəaliyyət göstərirdi ki, bunların arasında 1906-cı il martın 4-də nizamnaməsi təsdiq edilmiş, noyabrın 10-da isə Bakı dumasının zalında təntənəli açılışı olmuş "Nəşri-maarif" adlı xeyriyyə cəmiyyətini, xüsusilə qeyd etmək lazımdır. Başlıca məqsədi Bakı şəhərində və quberniyasında yaşayan müsəlmanlar arasında elm və maarifi, xüsusilə ibtidai təhsili Azərbaycan və rus dillərində yaymaq, hər növ maarifçilik fəaliyyətini dəstəkləmək olan cəmiyyətə Bakı quberniyasının baş qazisi və Bakı Müsəlman Şiə Ruhani İdarəsinin sədri Axund Mir Məhəmməd Kərim Mircəfərzadənin sədr, Əhməd bəy Ağaoğlunun isə katib seçilməsi cəmiyyətin uğurlu fəaliyyətinin təminatçısı oldu. Cəmiyyəti "cəmiyyəti-ehyayi-millət" adlandıran Əhməd bəy açılış mərasimindəki çıxışında milli oyanışın həyati əhəmiyyət kəsb etdiyini vurğulamışdı. Qazı ağanın və xəstə olduğu halda açılışa gəlmiş millət atası H.Z.Tağıyevin çıxışları iştirakçıların qəlblərini kövrəltmişdi. Çıxışını "Ey müsəlmanlar! Siz də bir xabi-qəflətdən oyanın, ətrafa nəzər ediniz! Axır biz nə vəqtəcən cahil olacağız? Özümü bu gün xoşbəxt hesab edib bu "Nəşri-maarif" cəmiyyətinə üç min manat bəzl ediyorum" sözləri ilə tamamlayan elm və maarif hamisi cəmiyyətə uğurlar arzulamışdı. Ziyalı, üləma və milli burjuaziyanın tarixi əməkdaşlığının bəhrəsi olan "Nəşri-maarif" cəmiyyətinin ilk sədrinin üləmadan olması, sonralar isə H.Z.Tağıyevin rəhbərliyi altında fəaliyyətini davam etdirməsi məntiqli və ağlabatan bir addım idi. Belə ki, bəzi mövhumatçı din xadimlərinin müqavimətini qırmaq, ilkin mərhələdə imkanlı insanları Allah yolunda əvəzsiz, təmənnasız yardım göstərməyə vadar etmək üçün bu təcrübə son dərəcə faydalı olmuşdu. Xüsusilə, qız məktəblərinə qarşı üzdəniraq din təəssübkeşlərinin təxribat və hücumlarının qarşısına sədd çəkmək üçün də bu addım olduqca zəruri idi (2, s.227).

Həmin dövrdə maarifçilik fəaliyyətilə məşğul olmuş xeyriyyə cəmiyyətlərindən biri də 1910-cu il 12 iyulunda əsasən maarifpərvər ziyalılar tərəfindən təsis edilmiş "Səfa" cəmiyyəti idi ki, savadsızlığın ləğvi və qızlara tikiş, əl işi öyrətmək məqsədilə açdığı

kurslar bu cəmiyyətin maarifçilik sahəsində gördüyü işlərdən bir qismi idi. Başlıca məqsədi xeyriyyəçiliklə yanaşı müsəlman qadınları arasında savadlılığı və maarifçiliyi yaymaq, şagirdlərə maddi yardım göstərmək olan "Bakı Müsəlman Qadın Xeyriyyə Cəmiyyəti"nin də maarifçilik hərəkatında xüsusi xidmətləri olmuşdur. Nizamnaməsi hakimiyyət orqanları tərəfindən təsdiq edildikdən sonra, 1914-cü il noyabrın 21-də "Bakı milyonçusu Murtuza Muxtarovun həyat yoldaşı Liza xanım Muxtarovanın sədrliyi altında fəaliyyətini davam etdirmiş cəmiyyətin maarifçilik sahəsində ən mühüm xidmətlərindən biri 1917-ci ildə Bakıda yoxsul qızlar üçün peşə məktəbi açması olmuşdur. Lakin məktəb 1918-ci il dəhşətli mart faciəsindən sonra fəaliyyətini dayandırmağa məcbur olsa da cəmiyyətin tarixində əlamətdar bir hadisə kimi qalmışdır (2, s.237-238).

Maarifçilər təhsillə yanaşı qadın və uşaqların mütəşəkkil şəkildə tamaşalara baxması üçün də xüsusi tədbirlər görürdülər ki, bunlardan ən mühümü gündüz tamaşaları idi. Bu dövrdə ayrıca uşaq teatrı yaratmaq ideyası doğmuş, bir neçə uşaq pyesi də yazılmışdır. Bu baxımdan Abdulla Şaiqin bir maarifçi olaraq gördüyü işlər Azərbaycan qadın və qızlarının dünyagörüşündə silinməz izlər buraxmışdır. Habelə, onun böyük qardaşı Axund Yusif Ziya Talıbzadə qadınların təhsil və tərbiyəsi sahəsində elmi-pedaqoji fəaliyyətləri ilə fərqlənmişdir.

Azərbaycan qadınının ictimai fəallıq qazandığı sahələrdən biri teatr sənəti idi. Son zamanlara qədər belə düşünülürdü ki, Azərbaycan qadını ilk dəfə səhnəyə yalnız əsrimizin iyirminci illərindən sonra qədəm qoymuşdur. Professional aktyorluq etibarilə bu belədir, lakin əvvəllər də Azərbaycan qadınının ara-sıra səhnəyə çıxması, bəzi hallarda isə uzun müddət səhnə ilə bağlı olması faktları məlumdur. İctimai və dini əngəllərə görə rəsmən Azərbaycan qadınının səhnədə görünməsi əsasən epizodik xarakter daşısa da, çox böyük əhəmiyyətə malik idi. Milli teatrı milli aktrisasız təsəvvür etmək nə qədər çətin olsa da, bu Azərbaycan teatrı tarixinin acı həqiqətlərindəndir. Qadın rollarını uzun müddət kişilər oynamışlar. Bu vəziyyət müəyyən müddət davam etsə də, qadın rollarını ifa etmək üçün rus və erməni aktrisaları dəvət edilmişdir. Bu qadınların Azərbaycan səhnəsində xidməti çox böyükdür. Xüsusən, Azərbaycan dilini nisbətən daha yaxşı bilən Anna və Yeva Olenskayalar milli aktrisa probleminin həllində olduqca faydalı əmək sərf etmişlər. Mühafizəkar qüvvələr bu qadınlara qarşı nə qədər sərt davranırdısa, mütərəqqi qüvvələr səhnədə görünən hər bir azərbaycanlı qadınını alqışlayır, onun bu addımında mühüm bir ictimai inkişaf nişanəsi görürdülər. Göyərçin xanım, Gülbahar xanım, Rüxsarə xanım belə aktrisalardan idilər. Azərbaycan qadınlarının səhnədə görünməsi nəinki Azərbaycanda, hətta xaricdə, məsələn, Türkiyədə fövqəladə bir yenilik kimi qarşılanmışdır (6, s.47-48).

Ümumilikdə Azərbaycan maarifçiliyində mədəni tərəqqini şərtləndirən ən mühüm amillər bunlar idi: mütərəqqi fikirli, milli ruhlu ziyalıların məhsuldar fəaliyyəti; vətənpərvər Azərbaycan zənginlərinin maddi yardımı və 1905-ci il inqilabının doğurduğu nisbi azadlıqlar. Tağıyev Dram Teatrı, Birinci müsəlman qadın seminariyası, müsəlman Cəmiyyəti-xeyriyyəsinə məxsus "İsmailiyyə" sarayı, müsəlman oğlan uşaqlarına məxsus "Səadət" məktəbi binalarının inşası; Bakıda Xeyriyyə-Cəmiyyəti, Nəşri-Maarif Cəmiyyəti və digər maarif və dram cəmiyyətləri, Gəncədə Mədrəseyi-Ruhaniyyə ilə Dram Cəmiyyətlərinin fəaliyyəti; xüsusi şəxslər və ictimai müəssisələr tərəfindən verilən ianələrlə Rusiyaya və Avropanın ali məktəblərinə tələbə göndərilməsi də Azərbaycanın ziyalı və zəngin zümrələri arasında yaranmış fikir, əqidə birliyinin nəticəsi idi. Elə bu səbəbdən də toplantıların, yığıncaqların da əsas mövzusunu təşkil edən mədəniyyət, milli tərbiyə və milli birlik kimi məsələlər içərisində qadınların sosial-ictimai fəallığı problemi də maarifçiləri narahat edirdi.

Qadınların təhsil və tərbiyəsinə, onların ictimai fəaliyyətlərə cəlb edilməsinə xüsusi önəm vermiş maarifçi ziyalıları məşğul edən ortaq bir mövzu vardı: xalqı qəflət yuxusundan oyandırmaq, elmə yiyələndirmək və tərəqqi etmək. Maarifçilik dövrünün elmə, maarifə,

ədəbiyyata, incəsənətə dair yazılmış əsərlərinin ana məqsədi, o cümlədən teatr maarifçiliyinin ifadə etdiyi əsas qayə Azərbaycan cəmiyyətini mədəni dünyanın yürüdüyü inkişaf yoluna istiqamətləndirmək olmuşdur. H.B.Zərdabi, N.B.Vəzirov, Ə.B.Haqverdiyev, N.Nərimanov, Ə.B.Hüseynzadə, Ə.B.Ağaoğlu, M.Ə.Rəzulzadə, M.Hacınski, Ü.Hacıbəyli, C.Məmmədquluzadə kimi Azərbaycan maarifçilərinin daha çox diqqət yetirdikləri məsələlərdən biri qadın mövzusu idi. Onlar bu sahədəki maarifçilik işini əsasən məktəb, mətbuat və teatr vasitəsilə aparırdılar. Məsələn, Üzeyir Hacıbəyli "bir maarifçi kimi milli mədəniyyətin inkişafına opera sənətinin əsasını qoymaqla və bütünlükdə milli Azərbaycan gerçəkliyində dünya mədəniyyət nəzəriyyəsini inkişaf etdirməklə, maarifçi tələbləri yaradıcılıqla həll etmək vasitəsilə xidmət etmişdir" (7, s.247). İstər Azərbaycan qadınının hüquqlarının müdafiəsi və təbliğində, istərsə musiqi və teatr obrazları vasitəsilə qadınların sosial fəallığının təşviq edilməsində, istərsə də musiqi və teatr mədəniyyətinin tərəqqisində qadınların iştirakının təmin olunmasında Üzeyir Hacıbəylinin müstəsna xidmətləri, xüsusilə qeyd edilməlidir.

Mədəniyyətimizin belə bir inkişaf xəttini ideoloji aspektdən təhlilə çəkən M.Ə.Rəsulzadə yazırdı ki, ədəbiyyat, musiqi, mətbuat və ümumxalq təlim-tərbiyəsi sahəsindəki irəliləyişlər artıq milli hərəkat məcrasına yönəlməkdə idi. Qəzetçilikdə Ə.Ağaoğlunun, Ə.Hüseynzadənin, M.Cəlilin, poeziyada M.Ə.Sabirin, M.Hadinin xidmətləri ilə paralel olaraq teatr və musiqi sahəsində də böyük uğurlar qazanılırdı. Avropa dramaturqlarının klassik nümunələri, N.Kamalın "Vətən"i, Ş.Saminin "Bəsa"sı Azərbaycan teatrının repertuarını bəzəyirdi. Qüdrətli rejissorlardan, professional aktyorlardan ibarət dram truppaları Azərbaycan dramaturqlarının milli ruhlu, həyati əsərlərini yüksək şövqlə tamaşaçılara təqdim edirdilər. Bu dövrdə Azərbaycan səhnəsinin ən böyük müvəffəqiyyəti isə Ü.Hacıbəylinin "Leyli və Məcnun"u – Azərbaycan operasının doğuşudur. Qərb və Şərq musiqi ənənələrindən bəhrələnərək uğurlu bir sintezə nail olan və təcrübənin misilsiz müvəffəqiyyətindən ruhlanan müəllif qısa müddət ərzində teatrların repertuarından düşməyən bir neçə opera və operetta yazır. Onun "Arşın malalan"ı bütün Qafqaz dillərinə çevrilir, Azərbaycan, Gürcüstan, İran, Türkiyə, Türküstan və Balkan səhnələrini bəzəyir (10, s.18-19).

Doğrudur, XX əsrin əvvəllərinə kimi milli teatrda azərbaycanlı qadın artist yox idi. Azərbaycanlı qadının səhnəyə gəlməsi bir yana, onun teatr tamaşalarına baxması belə günah və qəbahət sayılırdı. Ancaq tədricən oxumuş ziyalı qadınlar yetişməyə başlamışdı. Onlar da teatr işi ilə məşğul olurdular. Məsələn, Səkinə xanımın fəaliyyəti təsdiqləyir ki, "konkret bir zamanda cərəyan etmiş maarifçilik hadisəsində" (7, s.228) Azərbaycan qadınlarının da rolu olmuşdur. Bu qadınlar içərisində teatr sənəti ilə maraqlanmış və dramaturgiya ilə də məşğul olmuş Səkinə Axundzadə (1865-1927) Azərbaycanın ilk qadın müəllimlərindən biri kimi Bakıda və Qubada xalqın maariflənməsi yolunda böyük işlər görmüşdür. O, teatr həvəskarları ilə yaradıcılıq əlaqələri saxlamış və "Elmin bəhrəsi", "Gəlin və qaynana" kimi pyeslər yazmış, Namiq Kamalın "Zavallı cocuq" pyesini "Bəxtsiz bala" adı ilə dilimizə təbdil etmişdir. Süjeti Azərbaycanın həyat şəraitinə, mənəvi-psixoloji xüsusiyyətlərinə uyğunlaşdırılmış bu əsər teatr truppalarının tez-tez müraciət etdikləri pyeslərdən olmuşdur. Səkinə xanım Axundzadə məşhur fransız bəstəkarı Leo Delibin "Lakme" operası əsasında dram əsəri də yazmışdır ki, bu əsər "Nicat" truppasında, 1920-ci illərin əvvəllərində Milli Dram Teatrında müxtəlif səhnə quruluşlarında tamaşaya qoyulmuşdur (9, s.108-109). Habelə qız məktəblərinin açılmasında xidmətləri olan Səkinə xanım təhsil alan şagirdlərə müntəzəm olaraq maddi yardım da göstərmişdir.

Azərbaycanlıların kompakt yaşadıqları Bakı, Tiflis, İrəvan, Naxçıvanda, Aşqabad, Dərbənd, Şuşa, Gəncə kimi şəhərlərdə fəaliyyət göstərən teatr truppaları qadınlar və məktəb şagirdləri üçün də tamaşalar göstərmişlər. Lakin göstərilən əsərlər ya məşhur faciə və komediyalar, yaxud da böyüklər üçün təbdil edilmiş vodevillər idi. 1920-ci ilə qədər gənc

nəslin tərbiyəsi ilə bağlı çox işlər görülsə də sırf uşaq və yeniyetmələrin estetik maraq dairəsini ehtiva edən, onların dünyagörüşlərinin formalaşmasına təkan verən pyeslər hələ yaranmamışdı və bu işə göstərilən cəhdlər də hələlik səmərəli nəticə verməmişdi. Bu mənada Abdulla Şaiqin "Gözəl bahar" pyesi uşaqlar üçün yazılmış ilk dram əsəri olmaqla teatr maarifçiliyinin bu sahədəki inkişafına zəmin yaratdı. Azərbaycanda uşaq dramaturgiyasının əsasını təşkil edən "Gözəl bahar"ın ilk tamaşasını A.Şaiq şagirdləri üçün demək olar ki, özü hazırlamışdı. Onun ilk rejissoru, ilk musiqi tərtibatçısı, ilk rəssamı da özü olmuşdu. Az müddətdən sonra isə pyes peşəkar səhnə ustaları tərəfindən dəfələrlə səhnədə oynanılmışdır. "Gözəl bahar" yazıldığı ildə H.Zərdabinin həyat yoldaşı, müəllimə Hənifə xanımın köməyi və iştirakı ilə də məktəb səhnəsində oynanılmışdı. Əsərdəki Bahar, Qış, Günəş, Yer, Külək, Qaranquş və başqa rolların hamısını şagirdlər ifa etmişdilər.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə milli ruhun və milli ideyaların güclənməsi nəticəsində milli mədəniyyətin təbliğinə və tədqiqinə, tarixi və milli ənənələrə maraq fövqəladə dərəcədə artmışdı. 1918-ci ilin sonlarında Bakıda "Türk gecələri" adı ilə təşkil edilən geniş proqramlı konsertlərin təşkili də bununla əlaqədar idi. Maraqlı və orijinal proqramlı "Türk gecələri"ndə türk xalqlarının musiqisinə və ədəbiyyatına geniş yer verilir, "Azərbaycanın müstəqilliyi", "Türk tipləri", "Milli birlik" və s. mövzularda tamaşalar göstərilirdi. Bu tədbirlərdə tatarlar, osmanlı türkləri, Azərbaycan və Türkiyə şair və yazıçıları, artistlər və rəssamlar iştirak edirdilər (1, s.410). Qadınların ictimai fəallığının hiss edildiyi bu tədbirlər içərisində "Türk qadının dünyası" mövzusunda təşkil edilmiş proqramlar Azərbaycan qadınının mədəniyyət quruculuğuna cəlb edilməsi baxımından da əhəmiyyətli idi.

Azərbaycanda mədəniyyət və təhsil problemlərinin həllində fəallıq göstərmiş qadınlarımızdan biri – tanınmış opera müğənnisi Şövkət Məmmədova (897-1981) klassik Avropa üslubunda oxuyan və opera partiyaları ifa edən ilk peşəkar milli sənətkarımızdır. Görkəmli musiqi xadimi, pedaqoq, təşkilatçı və yüksək səhnə mədəniyyətinə sahib olan Şövkət xanım da ilk maarifçi qadınlarımızdandır. Həssas və zərif musiqi duyumu, səsinin lirik axıcılığı ilə seçilən bu maarifpərvər Azərbaycan qadınının oynadığı rolların siyahısı bir sənətkar ömrünün mənası baxımından nümunəvidir. Ş.Məmmədova professional opera solistliyindən və vokal ustalığından əlavə, həm də məşhur teatr maarifçilərindən idi.

Belə ki, Ş.Məmmədova 20-ci illərin əvvəllərində respublika rəhbərliyinə dəfələrlə yazılı və şifahi müraciətlər edərək teatr kadrlarının təlim və təhsilinin təşkili məsələsini qaldırır və bunun üçün bir sıra təşkilati tədbirlərin görülməsini təklif edirdi. O, 1922-ci ildə Xalq Maarif Komissarlığına göndərdiyi məktubda Azərbaycan Teatr Akademiyasının yaradılmasını, habelə "Teatr və incəsənət" adlı xüsusi jurnalın nəşr olunması məsələsini qaldırırdı. Onun fikrincə, bu tədris müəssisəsinin əsas məqsədi "təkcə öz istedadı ilə deyil, eyni zamanda nəzəri və təcrübi hazırlığı və səhnə ifasının mükəmməlliyi ilə səhnədə teatrı yeniləşdirmək iqtidarına malik Azərbaycan aktyorunu" hazırlamaqdır. Şövkət xanım öz məktubunda akademiyanın yaradıcılıq işlərinə rəhbərlik etmək üçün bədii şuranın təşkili məsələsini, "müsəlman qızlarının səhnəyə cəlbi üçün daha əlverişli şərait yaratmaq" məqsədilə qadınlar klubunun tədris ocağının işinə cəlb edilməsi fikrini irəli sürürdü (11, s.389-390). Maarif komissarlığının kollegiyası 1922-ci il oktyabrın 25-də keçirdiyi iclasda Ş.Məmmədovanın məlumatını müzakirə edərək qərara alır: "Çoxlu elmi qüvvələrin olmasını tələb edən Teatr Akademiyasının açılması məsələsi vaxtsız qoyulmuş məsələ hesab edilsin. Teatr sənəti xadimləri kadrlarının hazırlanması məqsədilə Maarif Komissarlığı tərəfindən hazırlanmış Nizamnaməyə müvafiq olaraq Dramatik teatr məktəbi açılsın". Daha sonra göstərilirdi: "Müsəlman qadınlarının ictimai həyata cəlb edilməsi, onlarda teatra maraq oyadılması məqsədilə müsəlman qadınlar klubu teatr məktəbinin təşkilinə daha geniş cəlb edilsin" (11, s.390).

Göründüyü kimi teatr təhsili problem-

lərinə daha əvvəllər də diqqət yetirilməsinə baxmayaraq Azərbaycanda teatr təhsilinin tarixi Azərbaycan Maarif Komissarlığının 1923-cü il tarixli qərarı ilə Moskvadakı B.V.Şukin və M.S.Şepkin adına teatr məktəbləri nümunəsində Bakıda teatr məktəbinin yaradılması ilə başlayır və teatr kadrları hazırlayan ilk təhsil ocağı – Bakı Dövlət Teatr Texnikumu 1923-cü ildə Ş.Məmmədovanın (ilk direktoru) təşəbbüsü və Azərbaycan XKS-nin qərarı ilə yaradılır (3, s.6).

Beləliklə, Maarif Komissarlığının kollegiyası 25 oktyabr 1922-ci il tarixli iclasında Şövkət Məmmədovanın Azərbaycan Teatr Akademiyasının yaradılması ilə bağlı təklifini müzakirə edir və 1 noyabr 1922-ci il tarixdə isə Bakı Dövlət Türk Teatr Məktəbinin təsisi haqqında qərar verilir. Ş.Məmmədova məktəbin müdiri təyin olunur və 1923-cü ildə Teatr məktəbinə ilk qəbul keçirilir. Bununla da, Azərbaycan teatrının çoxillik axtarışları və təşəbbüsləri respublikada ilk teatr təhsili ocağının yaradılması ilə nəticələndi, bu da nəinki Azərbaycanın, bütün müsəlman Şərqinin həyatında tarixi hadisə idi. Təsadüfi deyildir ki, "Kommunist" qəzetinin 1925-ci il aprel-may saylarında "Türk teatr məktəbi" adlı silsilə məqalələrlə çıxış edən Cəfər Cabbarlı bu faktı mədəni hadisə kimi təqdir edirdi (3, s.7). Bir sıra təşkilati tədbirlərlə yanaşı azərbaycanlı qızların bu məktəbə cəlb edilməsi məqsədilə Bakıdakı Müsəlman Qadınlar Klubunun da teatr məktəbinin işində yaxından iştirakının təmin edilməsi nəzərdə tutulmuşdu. Nəcib təşəbbüslər və uğurlu axtarışlar respublikada ilk teatr təhsili ocağının yaradılması ilə nəticələndi. Teatr təhsilinin əsası qoyulduqdan sonra respublikanın teatr xadimləri Dövlət teatr məktəbinin yaradılması işinə böyük həvəs və şövqlə başlayırlar. 1923-cü ildə məktəbə aktyorluq ixtisası üzrə ilk qəbulda 40 nəfər tələbənin 12-si azərbaycanlı qızlar olmuşdur ki, bu da o zaman üçün böyük nailiyyət hesab edilirdi.

Ş.Məmmədovanın direktoru olduğu 1923-1925-ci illərdə Teatr məktəbində Azərbaycanla yanaşı Özbəkistanın, Türkmənistanın və Dağıstanın ən məşhur səhnə ustaları təhsil almışlar. İyirminci illərin əvvəllərində Şövkət xanım Bakıda ilk not nəşriyyatı da təsis etmişdir. Şövkət xanım daha sonralar – 1939-1945-ci illərdə M.F.Axundov adına Azərbaycan Dövlət Opera və Balet Teatrının direktoru olmuşdur. Ş.Məmmədovanın təşəbbüsü ilə 18 aprel 1940-cı ildə ilk Azərbaycan baleti olan "Qız qalası"nın (Əfrasiyab Bədəlbəyli) premyerası olmuşdur. Vaxtilə Azərbaycanda fəaliyyət göstərmiş müxtəlif teatr cəmiyyəti və ittifaqları 1945-ci ildə Azərbaycan Teatr Cəmiyyəti adı ilə yenidən təsis edilmişdir ki, onun da ilk sədri Şövkət xanım olmuş və o, bu vəzifədə 1952-ci ilə qədər səmərəli maarifçilik fəaliyyəti göstərmişdir. Şövkət xanım Teatr Cəmiyyətinin sədri olmaqla yanaşı Azərbaycan Dövlət Konservatoriyasında pedaqoji fəaliyyətlə də məşğul olmuş, həm "Vokal" kafedrasının müdiri, həm də dekan vəzifələrində çalışmışdır (9, s.530-535). SSRİ xalq artistləri Firəngiz Əhmədovanın və Müslüm Maqomayevin yetişib formalaşmasında da müstəsna rolu olmuş professor Şövkət Məmmədova Tiflis, Odessa, Moskva, Kiyev, Peterburq, Daşkənd, Paris, Təbriz kimi şəhərlərin böyük opera teatrlarında və nəhəng konsert salonlarında Azərbaycan mədəniyyətini layiqincə təmsil etmişdir.

Tarixi faktların da təsdiqlədiyi kimi qadınların ictimai fəallığını cəmiyyətin ümumi tərəqqisi üçün əhəmiyyətli şərt hesab edən Azərbaycan maarifçiləri sivil dünyanın mədəni ideallarını ali məqsədə çevirmiş, cəmiyyətin tərəqqisi yolunda problemlər yaradan amillərin aradan qaldırılmasına çalışmış, mühafizəkar toplumun maarifləndirilməsi işinin dövrün ictimai-siyasi hadisələri şəraitində aparılması ilə bağlı mümkün olan bütün yolların axtarışında olmuşlar. Mədəniləşmə prosesini ləngidən adət-ənənələrin, ailə və əxlaq məsələlərinin, insanların şüurunda dərin iz buraxmış mövhumat və xurafatın tənqidi ilə yanaşı, cəmiyyətin mədəni inkişaf naminə yeniləşməsi qarşısında böyük sədd olan savadsızlığın ifşası, təhsilin, elmin təbliği maarifçiliyin əsas və aparıcı motivləri olmuşdur. Bu mənada ümummilli lider Heydər Əliyevin maarifçilik hərəkatının əhəmiyyətinə dair

söylədiyi fikirlər çox məntiqidir: "Maarifçilik Azərbaycanın mütəfəkkir adamlarının əsas vəzifəsi olmuş və xalqımızın görkəmli simaları bu sahədə tarix boyu böyük xidmətlər göstərmişlər" (4, s22).

Maarifçilər qadınların sosial və ictimai fəallığını cəmiyyətin mədəniləşməsi uğrunda mübarizənin tərkib hissəsi hesab etmişlər. Xalqın ağır həyat keçirdiyi, ictimai və milli zülmə məruz qaldığı, mövhumat və cəhalətin qaranlığı içində çırpındığı bir zamanda bu maarifçilər qadın hüquqlarının qayğısına qalmışlar.

Azərbaycan maarifçiləri həmişə ictimai-mədəni fikrin daşıyıcısı olmuş, xalqın mədəni intibahında, tərəqqi və azadlıq hərəkatında tarixi bir vəzifə icra etmişlər. Cəmiyyətin mədəni-ictimai həyatı ilə həmişə bağlılıqda olan, xalqla ünsiyyəti möhkəm əsaslar üzərində quran maarifçilər vətəndaşlıq mövqelərini, müasirlik və mübarizlik duyğularını aşkar şəkildə bəyan etmişlər. Müasir qadınların həyatdakı mövqeyi, onların milli-bəşəri, humanist və demokratik dəyərlər uğrundakı fəaliyyəti baxımından maarifçilərin mühüm rolu olmuşdur. Onlar öz fəaliyyətlərində qadınların ədəbi-bədii, ictimai-siyasi, mənəvi-əxlaqi və estetik tərbiyəsinə ciddi yer vermişlər. Məhz maarifçi fəaliyyətlər qadınları düşündürmüş, onları həm tarixi keçmişimizdən, həm də müasir həyatımızdan dərin məntiqi mənalar çıxarmağa çağırmışdır.

## ƏDƏBİYYAT

1. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. İki cilddə. II cild. Bakı: "Lider nəşriyyat", 2005, 472 s.
2. Babaşlı Məmmədəli. XX əsrin əvvəllərində Azərbaycanda milli oyanış və maarifçilik hərəkatı. Bakı, Qafqaz Universitetinin nəşri, 2003, №12, s.223-240.
3. Əfəndiyev T.İ. Şərəfli yol. "Mədəniyyət dünyası", VII buraxılış, Bakı: ADMİU, 2003, s.6-10.
4. Heydər Əliyev. Müstəqillik yolu. Seçilmiş fikirlər. Bakı: "Azərbaycan Universiteti" nəşriyyatı, 1997, 136 s.
5. Kərimov İ.S. Azərbaycan peşəkar teatrının tarixi və inkişaf mərhələləri. Bakı: Maarif, 2002, 576 s.
6. Qazıyeva N.Ə. Səhnə pedaqogikası. Dərslik. Bakı: Mars-Print, 2004, 292 s.
7. Quliyeva X. Azərbaycan maarifçiliyində fəlsəfi-etik məsələlər (XIX əsrin ikinci yarısı XX əsrin əvvələri). Bakı: Elm və təhsil, 2014, 280 s.
8. Mədəniyyət tarixi və nəzəriyyəsi. Dərslik (əlavə olunmuş və redaktə edilmiş ikinci nəşri). Bakı: Sabah, 2010, 876 s.
9. Rəhimli İ.Ə. Azərbaycan teatr tarixi. Bakı: Çaşıoğlu, 2005, 864 s.
10. Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Bakı: Elm, 1990. 116 s.
11. Sultanov Fikrət. Yaranış. "Mədəniyyət dünyası", VII buraxılış, Bakı: ADMİU, 2003, s.382-390.

*Самира Наил кызы Рамазанова*

## ПРОСВЕЩЕНИЕ И СОЦИАЛЬНАЯ АКТИВНОСТЬ ЖЕНЩИН В АЗЕРБАЙДЖАНЕ

### *РЕЗЮМЕ*

В статье представлены научные выводы по сути и истории просветительского движения, а также освещаются направления деятельности азербайджанских просветителей. Даются научные оценки деятельности интеллигенции в области театра, прессы и образования. В статье анализируется просветительская работа культурно-образовательных обществ. Представлен общий взгляд на деятельность просветителей в области образования и воспитания женщин, а также подчеркивается большое значение предпринятых инициатив по увеличению общественной активности женщин. В статье рассматриваются факты относительно участия азербайджанских женщин в культурной жизни, анализируется проблема общественной активности азербайджанских женщин на примере Сакины ханум Ахундзаде и Шовкет Мамедовой.

***Samira Nail gizi Ramazanova***

**ENLIGHTENMENT AND WOMENS SOCIAL ACTIVITY IN AZERBAIJAN**

***SUMMARY***

The scientific conclusions on the history and essence of the enligtenment movement are given in the article. The main directions of Azerbaijan enligteners activity are explained. The service of the intellectuals in the sphere of theatre, press and education are appraised from the scientific point of view. Enlightenment activity of cultural-educational societies are touched upon in the article. The affairs of enlighteners in the sphere of womens education and upbringing are generalized, and the significance of intiatives on womens social activity are explained. The facts dealing with the participation of the Azerbaijan women in the cultural life from the beginning of XX centure are investigated in the article. The problem of social activity of the Azerbaijan women in the example of Sakina khanum Akhundzadeh and Shovket Mammadova are Analysed.